

"Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**

# Yeni neft strategiyamızın şanlı səhifəsi

*Ulu öndər Heydər Əliyevin müdrik siyasəti və qətiyyətli rəhbərliyi sayəsində ilk dəfə olaraq "qara qızıl"ın taleyi xalqımızın mənafeyi naminə həll edildi. 1994-cü ildə "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında müqavilə imzalandı. Təxminən 400 səhifə və 4 dildə tərtib edilən müqavilə son dərəcə böyük siyasi, iqtisadi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alıb. Çünki Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanının 10-a yaxın ən məşhur neft şirkətinin iştirakı ilə imzanan müqavilə ilə müstəqil dövlətimizin neft strategiyası və doktrinasının əsası qoyuldu. Bununla da xalqımızla yanaşı, dünya ictimaiyyəti də böyük bir sazişin canlı şahidi oldu.*



Xalqımız uzun illər boyu malik olduğu təbii sərvətindən öz mənafeyi naminə yetərincə faydalana bilməyib. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış, imzalanmış və uğurla həyata keçirilməsinin təməli qoyulmuş "Əsrin müqaviləsi" ölkəmizin bütün sahələr üzrə inkişaf tarixinə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazıldı. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlərdən biridir. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanan vaxt respublikamızın tarixində ən aşağı səviyyədə - 9,5 milyon ton neft hasil olunurdu. Müqavilədən sonra isə neft istehsalı dəfələrlə artdı və respublikamızın neft ehtiyatlarının istismarına böyük həcmdə xarici investisiya cəlb edildi.

Qeyd edək ki, kontrakt imzalananda neft ehtiyatları təxminən 511 milyon ton müəyyən olunmuşdu. Bu gün isə "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı var və bu, son rəqəm deyil. "Əsrin müqaviləsi" uğurla icra edildiyindən ölkəmizə yeni sərmayələr cəlb edilir. Ölkə iqtisadiyyatının bütün sahələr üzrə dinamik inkişafında sazişin xüsusi rolu var. Ancaq buna baxmayaraq, iqtisadi inkişafımızda neft-qaz amilindən asılılığın azaldılması istiqamətində də bir çox önəmli addımlar atılır. Çünki müqavilənin uğurla icrası digər sahələrin də hərtərəfli inkişafına təkan verməklə ölkəmizin regionun lider dövlətinə çevrildiyinə əsaslı zəmin yaradır. Azərbaycanın dünya miqyasında iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsində və nüfuz qazanmasında böyük rol oynayan "Əsrin müqaviləsi" bütün iqtisadi uğurlarla yanaşı, ölkəmizin xarici dövlətlərlə geniş əməkdaşlığının da təməlini qoydu.

Ümummilli lider Heydər Əliyev bildirmişdir ki, səylər birləşdirilmədən, təcrübə mübadiləsi aparılmadan heç bir ölkə təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. "Əsrin müqaviləsi"nin imzalanmasından öncə Beynəlxalq Xəzər Neft-Qaz Sərgisinin keçirilməsi Azərbaycanın malik olduğu enerji resurslarının dünyaya tanıdılmasında əhəmiyyətli rol oynadı. Ölkəmiz tarixən neft ölkəsi kimi tanınsa da bu gün neftlə yanaşı, həm də qaz, elektrik enerjisi ixracatçısıdır. Bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması istiqamətində uğurlu layihələr həyata keçirilir. "Əsrin müqaviləsi" postsovet ölkələrinin xarici neft şirkətləri ilə imzaladığı ilk beynəlxalq saziş olmaqla ölkəmizin iqtisadiyyatını sürətlə inkişaf etdirərək iqtisadi qüdrətini yüksəldib, siyasi, beynəlxalq mövqeyini xeyli möhkəmləndirib, əməkdaşlığı genişləndirib.

Ümummilli lider Heydər Əliyev bu sazişin əhəmiyyəti barədə danışaraq demişdir ki, sazişlə Azərbaycanın dünya, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdirdik. Bu müqaviləni imzalamaqla Azərbaycan ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaranır, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına qoşulması üçün əsas formalaşır.

Hazırda respublikamız dünyanın, o cümlədən Avropanın bir sıra ölkələri üçün əsas tərəfdaş hesab olunur və bu dövlətlərlə qarşılıqlı əməkdaşlıq durmadan genişlənir və inkişaf edir. Çünki o dövrdə ölkəmizin və xalqımızın gələcək inkişafı üçün son dərəcə böyük bir müdrik layihənin təməli qoyulub. Bu barədə Prezident İlham Əliyev demişdir: "Gəlin fərz edək, əgər 1994-cü ildə "Əsrin müqaviləsi" bağlanmasaydı, nə olardı, əgər çətin, ağır şəraitdə Heydər Əliyevin səyləri nəticəsində biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlamasaydıq nə olardı? Azərbaycan hansı problemlərlə üzləşərdi? İndi Azərbaycanın dünyadakı mövqeləri necə ola bilərdi? Əlbəttə, bunu təsəvvür etmək çətin deyildir. Bu gün Azərbaycanın inamlı inkişafının əsas səbəbi məhz 1990-cı illərin ortalarında ulu öndər Heydər Əliyev tərəfindən başlanmış neft strategiyasıdır". Ulu öndər Heydər Əliyev 1994-cü il sentyabrın 20-də "Gülüstan" sarayında o tarixi gündə öz çıxışında qeyd etmişdir ki, bu kontraktın Azərbaycana çox böyük xeyri, faydası olacaq.

"Əsrin müqaviləsi"nin uğurlu nəticələrinin müsbət bəhrəsidir ki, neft-qaz sənayesi ilə qeyri-neft sektoru da xeyli inkişaf edir. Son 21 ilə yaxın müddətdə qazanılan uğurların nəticəsidir ki, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, əzəli yurd yerlərimiz yenidən qurulur. Görülən bütün işlər neft strategiyasının dövlətimizə bəxş etdiyi uğurların əyani göstəricisidir. Bu mənada, müqavilə ölkəmizin dünyada rolunun genişlənməsində və möhkəmlənməsində müstəsna əhəmiyyət kəsb edir.

"Əsrin müqaviləsi" tarixi qələbəmizin qazanılmasında da müstəsna rol oynadı. Müharibə dövründə olan, torpaqlarının 20 faizi işğal edilən və bir milyon vətəndaşı məcburi köçkün şəraitində yaşayan ölkə üçün güclü ordunun formalaşması son dərəcə vacib idi. Ölkəmizin iqtisadi və maliyyə imkanları genişləndiyi üçün ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görüldü.

Qazanılan bütün uğurlar bir daha təsdiq edir ki, yeni neft strategiyasının məntiqi nəticəsi və şanlı səhifəsi olan "Əsrin müqaviləsi" iki böyük sərkərdənin - ulu öndər Heydər Əliyev və onun davamçısı Prezident İlham Əliyevin Azərbaycan xalqının əbədi inkişafına böyük töhfəsidir.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**